Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyət və təhsilinin aktual problemləri* №1, 2020, **s. 24-31**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2020, **с. 24-31**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2020, **pp. 24-31**

UOT 784.1

M.T.Əliyeva
pedaqogika üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: m.aliyeva@gmail.com

C.CAHANGİROVUN VOKAL-XOR ƏSƏRLƏRİNDƏ VƏTƏNPƏRVƏRLİK İDEYASI

Açar sözlər: *xor musiqisi, vətənpərvərlik, yaradıcılıq, mahnı, romans, poema, oda, opera*

Məqalədə görkəmli bəstəkarımız C.Cahangirovun vokal-xor musiqisində vətənpərvərlik mövzusunun işıqlandırılması problemi araşdırılır. Burada bəstəkarın bu mövzuda bəzi monumental əsərlərinin təhlili aparılır və ilk dəfə olaraq musiqişünaslara və geniş kütləyə az tanış olan kiçik formalı xor və vokal əsərləri təfərruatı ilə araşdırılır. Məqalədə bəstəkarın musiqi palitrasının özünəməxsus çalarları, musiqi dilinin milli boyaları qeyd olunur.

М.Т.Алиева

ИДЕЯ ПАТРИОТИЗМА В ВОКАЛЬНО-ХОРОВЫХ ПРОИЗВЕДЕНИЯХ ДЖАНГИРА ДЖАНГИРОВА

Ключевые слова: *хоровая музыка, патриотизм, творчество, песня, романс, поэма, ода, опера*

В статье рассматривается проблема освещения патриотической темы в вокально-хоровой музыке видного азербайджанского композитора Джангира Джангирова. Здесь проводится анализ некоторых монументальных хоровых произведений композитора на данную тематику, и впервые подробно рассматриваются его малоизвестные музыковедам и широкому слушателю вокальные и хоровые произведения малой формы. В статье отмечается своеобразие музыкальной палитры, национальная окраска музыкального языка композитора.

M.T.Aliyeva

THE IDEA OF PATRIOTISM IN THE VOCAL AND CHORAL WORKS OF JANGIR JANGIROV

Key words: *choral music, patriotism, creativity, song, romance, poem, ode, opera*

The article considers the problem of covering the patriotic theme in the vocal and choral music of the prominent Azerbaijani composer Jangir Jangirov. Here, an analysis of some monumental choral works by the composer on this subject is carried out, and for the first time his little-known musicologists and the general listener are examined in small vocal and choral works. The article notes the originality of the musical palette, the national coloring of the musical language of the composer.

Ölkəmizin musiqi mədəniyyətinin inkişafında, gənc nəslin bədii-estetik zövgünün formalaşmasında, vətənpərvər ruhda böyüməsində xor musiqisinin böyük əhəmiyyəti var. Xor ifaçılığı gənclərdə "fəal həyat mövqeyi yaratmaqla bərabər müəyyən biliklər verməli, əmək, istirahət proseslərinə yaradıcı yanaşmağı öyrətməlidir" (1, 60). Azərbaycan bəstəkarlarının yaradıcılığında xor musiqisi mühüm yer tutur və onun böyük bir hissəsi qəhrəmani-vətənpərvərlik mövzusu ilə bağlıdır. Ümumiyyətlə xor musiqisinə əhəmiyyətli, mənalı, vətəndaş mövzular xarakterikdir. Burada vətənə sadiqlik, sevgi, azadlıq uğrunda mübarizə kimi nəhəng epik mövzular öz əksini tapır.

Xor musiqisinin spesifikası onun şair sözü ilə bağlı olmasındadır. Poeziya isə öz növbəsində xalqın ictimai həyatının əks etdirilməsi ilə bağlıdır. Buna görə də iri həcmli xor əsərlərində (oratoriya, kantata, oda) "bəstəkarlarımız helə poetik mətnlərə müraciət edirlər ki, orada müasirliyin nəbzi hiss olunsun, ictimai həyatın ən aktual, mühüm hadisələrindən bəhs edilsin." (2, 71).

Azərbaycanın görkəmli bəstəkarı Cahangir Cahangirov özünəməxsus parlaq yaradıcılığı ilə ölkəmizin musiqi tarixində layiqli yerini tutmuşdu. Ü.Hacıbəyli ənənələrinə sadiq qalan bəstəkarın yaradıcılığının əhəmiyyətli hissəsini xor üçün yazılmış əsərlər və kütləvi mahnılar təşkil edir. Qətiyyətlə demək olar ki, müəllifin yaradıcılığı Azərbaycan xor musiqisi və kütləvi mahnı janrlarının inkişafında böyük rol oynamışdır. Bu cür vokal-xor sənətinə meyillilik onunla bağlıdır ki, C.Cahangirov ömrünün böyük hissəsini müxtəlif xor kollektivlərində çalışıb və o kollektivlər üçün yazıb-yaratmışdı. Bəstəkarın vokal-xor yaradıcılığında vətənpərvərlik mövzusu ilə bağlı əsərlər geniş yer tutur.

Respublikanın Xalq artisti, profesor C.Cahangirovun geniş dinləyici kütləsi arasında tanınması 1949-cu ilə təsadüf edir. O zaman Azərbaycan bəstəkarlarının yaradıcılığına baxış keçirilirdi. Baxışda iştirak edən gənc Cahangirovun "Arazın o tayında" vokal-simfonik poeması hamının diqqətini cəlb etdi. Poemanın sözləri Mədinə Gülgünün və Əli Tudənindir. Xalqın azadlıq uğrunda mübarizəsini tərənnüm edən bu görkəmli əsər bir il sonra Dövlət mükafatına layiq görüldü. O zaman Cahangir hələ konservatoriyanın 3-cü kursunda təhsil alırdı. Poema Moskvanın Sütunlu salonunda və Leninqradda ifa olunmuş, lent yazısı Ümumittifaq radiosunun qızıl fonduna daxil edilmişdi. Qeyd edək ki, sonralar bəstəkarın əsas yaradıcılıq istiqamətini müəyyənləşdirən və inkişaf etdirən cəhətlər həmin əsərdə ilk dəfə özünü büruzə vermişdir.

"Arazın o tayında" vokal-simfonik poema süjet aktuallığı, təravətli ahəngdarlığı, parlaq milli koloriti, obrazların emosionallığı ilə dinləyicilərin dərhal rəğbətini qazanmışdı. Əsər Cənubi Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti uğrunda mübarizəsindən bəhs edir. Azərbaycan xalqı İranın ərazisində demokratik dövlətin qurulmasına nail olsa da, lakin bu respublika çox yaşamadı, o qəddarcasına darmadağın edilmişdi. C.Cahangirov azərbaycan xalqı üçün bu faciyəli mövzuya üz tutaraq, Cənubi Azərbaycanın inqlabi şairlərinin, Mədinə Gülgün və Əli Tudenin şerlərilə milləti mübarizəni davam etdirməyə çağırır və qələbəyə inanaraq, əsərini nikbin əhval-ruhiyyə ilə bitirir.

Bəstəkar simfonik musiqinin, xor və solo vokal musiqisinin xüsusiy-yətlərini birləşdirərək Azərbaycan üçün yeni janr olan vokal-simfonik poema yaradmış, bununla da əsərə siyasi ideya cəhətdən kəskin, dərin, inandırıcı əlamətlər vermişdi. C.Cahangirovun qarşısında konkret süjet xətti olmasına baxmayaraq o, zahiri təsvirçiliyə deyil, əsarət altında inləyən xalqın daxili hiss və həyacanını açıqlayan ümumiləşdirilmlş obrazının təcəssümünə üstünlük verir.

Birhissəli poemanın emosional məzmunu, sonato alleqrosu formasının vasitəsilə mənfi və müsbət obrazlarını bir-birinə qarşı qoymaqla, ardıcıl olaraq açılıb göstərilir. Əsər humayun ladında nəfəsli və simli alətlətin unisonu ilə səslənən qəmli orkestr girişi ilə başlanır. Bəstəkarın yaradıcılığını tədqiq edən S.Qasımova haqlı olaraq qeyd edir ki, "girişin mövzusunun əsasını təşkil edən humayun ladının intonasıyaları Cənubi Azərbaycan musiqisində geniş yayılmışdı." (3,15). Humayun məqamının rəngləri mövzuya nəqli deklamasiya xarakteri verir. Bu mövzudan sonra dərin kədər və ümidsizliyi ifadə edən "xalqın faciyəsi" mövzusu səslənir. Dissonanslı septakkordlar silsiləsi inilti, fəryad hissi yaradır, basların uğultulu zərbələri kədərli mərasim əhval-ruhiyyısini bir qədər də gücləndirir.

Cəsarət və qətiyyətlə səslənən ekspozisiyanın əsas mövzusu mübarızə obrazını təcəssüm edir. Onun ciddi xarakteri simli alətlərin vasitəsilə nəzərə çarptırılır. Üşhissəli köməkçi mövzu isə zülmətə qalib qələn səadəti, fərəhli

günün işıqlı obrazını yaradır. Müəllif müxtəlif nüanslı cürbəcür səs qruplarını qarşılaşdıraraq, maraqlı tembr birmələşmələrindən, qapalı ağızla oxumadan istifadə edir. Köməkçi partiyanın orta hissəsində, sanki keçmiş haqqında xatirə kimi, giriş mövzusunun əks-sədaları imitasiyalı səsləşmədə təzahür edir. Üçüncü hissədə yenidən sakit obrazlara qayıdış baş verir və mövzunun nəqli tonu bərpa olunur. Müəllifin istifadə etdiyi akkord fakturası demək olar ki, əsərin sonuna kimi qorunub saxlanır. Poema onun qəhrəmanlıq obrazlarını ümumiləşdirən parlaq do-major kodası ilə tamamlanır.

1957-ci ildə Azərbaycan Dövlət Opera və Balet teatrının səhnəsində C.Cahangirovun "Azad" operasının premyerası baş tutur. Opera M.İbrahimovun 40-cı illərdə Cənubi Azərbaycanın kəndli həyatında baş verən hadisələrdən bəhs edən "Gələcək gün" romanı və "Azad qız" povestinin motivlərini özündə təcəssüm etdirir. Şair Hüseyn Hüseynzadə operanın librettosunu yazmışdır. Operada Cənubi Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda məzlum xalqın mübarizəsi öz əksini tapmışdır.

Operanın bir çox xüsusiyyətləri onun Ü.Hacıbəylinin "Koroğlu" operası ilə yaxınlığını göstərir. Belə ki, sosial kontrastların təcəssümü, üsyan etmiş xalq, kütləvi səhnələr, ümumi qəhrəmani-epik ton bunu nümayiş etdirir. Operanın əsas ideyasını yaşadan baş qəhrəman xalqdır. Buna görə də operanın dramaturgiyasında öz emosional məzmununa görə əsas yeri çox rəngərəng olan kütləvi xor və rəqs səhnələri tutur. Operanın xor səhnələrində bir növ kədər və iztirab dolu obrazların getdikcə fəallaşması nəzərə çarpır. Birinci pərdənin final xoru xalqın iradəsinin fəallaşdırılmasına doğru bir addımdır. Yalvarış intonasiyalarını ifadə edən xorun qəmli başlanğıcı kəndlilərin mübarizəyə hazır olduqlarını göstərən musiqinin coşqun təhdidedici xarakteri ilə əvəz olunur.

Xorun spesifikasını gözəl bilən bəstəkar xüsusi ustalıqla xalq xor səhnələrini yaradır. Buna misal olaraq üsyan etmiş xalqın obrazını təcəssüm etdirən bütövlüklə III pərdəni göstərmək olar. Həm öz məna əhəmiyyətinə görə, həm də ayrı-ayrı səhnələrin monumental sədalanmasına görə "Koroğlu"nun məşhur Çənlibel səhnəsilə səsləşən üçüncü pərdə operada xalq obrazının inkişafında zirvə təşkil edir. Burada səslənən "Çahargah" xoru böyük epik ifadəliliyi və monumentallığı ilə fərqlənir. Qurtuluşa inam ifadə edən və "qara buludları" qovmağa çağıran xor qəhrəmanlıq xarakteri daşıyır.

Bu xorda C.Cahangirov Çahargah muğamının bütün şöbələrindən ardıcıl istifadə edərək Azərbaycan musiqi tarixində yeni xor nümunəsini yaradır. Bəstəkar muğama metrik səlislik, böyük yığcamlıq verərək, onun bütün inkişafını üçhissəli forma çərçivəsinə salır. Xorun fakturası instrumental formaya yaxınlaşdırılmışdır və "hey" nidalarında xorun başlanğıcı muğamın giriş (bərdaş) bölməsini xatırladır. Kanar hissələrin sərt koloriti həmahəng səslənən bas və tenorların ostinato motivi ilə ("dağlar qoynu duman olar")

nəzərə çarpır. Sonra sərbəst və vahid polifonik səsləşmədə qovuşan qadın səslərində sekvensiyalar silsiləsi kişi səslərinin motivi fonunda sadalanır.


Xorun təzadlı orta hissəsində soprano və altlar muğam improvizasiyasını xatırladan, sərbəst axıb gedən kədərli melodiyanı ifa edirlər.

Dördüncü pərdənin xorları bir-birilə kəskin təzad təşkil edir. Birinci, pərdəarxası xor səhnədə baş verən görüş səhnəsinin facianə fonunu təşkil edir. İkinci, final xoru isə qəti xarakter daşıyaraq, xalqın mübarizəsini davam etdirmək üçün yenilməz iradəyə malik olduğunu ifadə edir. Qeyd etmək istərdik ki, "Azad" operası ilə "Arazın o tayında" poeması arasında ideya-tematik əlaqə mövcuddur.

Adları çəkilən əsərlərdən başqa C.Cahangirov xor üçün digər vətənpərvər əsərlər də bəstələyib. Məsələn, o, 1970-ci ildə xor, solist və simfonik orkestr üçün "Azərbaycan" odasını, 1977-ci ildə iki hissəli "Naxçıvan doğma diyar" kantatasını, 1985-ci ildə Böyük Vətən müharibəsində qələbənin 40-illiyinə həsr olunmuş xor, solist və simfonik orkestr üçün "Böyük qələbə" oratoriyasını bəstələmişdir. Bu əsərləri çap üzü görmüşdür və musiqişünaslara və dinləyicilərə az da olsa tanışdır. Laki onun müxtəlif kiçik formalı xor və vokal əsərləri də mövcuddur. Məsələn, 1970-ci ildə bəsətələdiyi "Azərbaycan" adlı kiçik xor əsəri onun vaxtı ilə rəhbərlik etdiyi Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblının kitabxanasında əlyazma şəklində saxlanılmış və uzun illər ərzində həmin amsamblın xor qrupunun repertuarında yer tutmuşdur. Bu əsər üzərində bir qədər dayanaq.

Bu xor əsəri mahnı janrı üçün tipik olan kuplet formasında yazılmışdır. Bəndini qətiətli və cəsarətli şəkildə kişi səsləri unisonla orta və aşağı tessiturada başlayırlar (mis. 1.). Burada əsas yükü bas və bariton səsləri daşıyırlar. Melodiyada olan punktir ritm və fanfar tipli sıçrayışlar onun çağırış, marş xarakterini göstərir. Bununla yanaşı cümlənin sonunda melodiyada milli melizmlərin bolluğu ona bir qədər lirik cəhətlər də verir:

Misal 1.



Nəqarat hissəsində "Var, dövlətin gəlməz sana..." sözlərinə qadın səsləri də kişilərə qatılır, lakin bununla xorun melodiyası heç də yumşalmır (mis.2.). Bunun tam əksi olaraq, yüksək tessiturada səslənən qadın xoru əsərə bir qədər də möhtəşəmlilik, apafeoz xarakterini aşılayır. Xorun fakturası mürəkkəbləşir və dörd səsə ayrılır:

Misal 2.



Ümumiyyətlə qeyd etməliyik ki, bu xorun musiqisi çox mətin, iradəli və doğma Azərbaycanımızı tərənnüm edən ən gözəl əsər nümunələrindəndir və onun ölkəmizin xor kollektivlərinin repertuarına daxil olunması çox gözəl olardı.

Cahangir Cahangirovun böyük həcmli, mürəkkəb formalı görkəmli əsərlərilə yanaşı, musiqi xəzinəmizi zənginləşdirən çoxlu mahnıları da vardır. Onun mahnıları asanlıqla ürəklərə yol tapır. C.Cahangirovun mahnı yaradıcılığında lirika əsas yer tutsa da, burada da Vətənə, doğma şəhərə, xalqa sevgi hisslərini, zəhmətkeş insanların əməyini vəsf edən mövzulara rast gəlmək olar. Məsələn bəstəkarın solo və xor üçün yazılmış "Bakı", Z.Cabbarzadənin sözlərinə yazılmış "Ana yurdum" mahnıları və A.Səhhətin sözlərinə "Vətənimdir" romansını da vətənpərvərlik mövzusunda olan əsərlərin sırasına daxil etmək olar. Qeyd etməliyik ki, "Ana yurdum" mahnısı bizim tərəfimizdən uşaq xoru üçün tərtib olunmuş və G.Axundovanın 2017-ci ildə dərc etdiyi "Məktəb mahnı repertuarı" dərs vəsaitinə daxil edilmişdir.

A.Səhhətin sözlərinə bəstələnmiş "Vətənimdir" vokal əsəri bariton səsi üçün nəzərdə tutlmuşdur. Lakim əsərin maraqlı quruluşu və qeyri-adi melodikası bizə bu əsəri də uşaq xoru üçün tərtib etməyə sövq etdi və 2016-cı ildə əsər bizim G.Axundova ilə birgə tərtib etdiyimiz "Məktəbli xoru üçün

Azərbaycan bəstəkarlarının mahnıları" dərs vəsaitinə daxil edilmişdir. Əsəri həm də Bakı şəhərinin 25 saylı musiqi məktəbinin xoru bizim rəhbərliyimiz altında 2015-16-cı illərdə ifa etmişdir.

"Vətənimdir" əsəri marş tempində, 2/4 ölçüdə cəsarətli girişilə başlanır, sonra sinkopalı və punktir ritmli birinci hissə səslənir (mis.3.) ki, burada qəhrəmani intonasiyalar öz yerini tapır:

Misal 3.



Birinci hissənin sonuncu xanəsində temp və ölçü dəyişir və orta hissə başlanır. Əsərin orta hissəsi (mis.4.) C.Cahagirov lirikasının gözəl bir nümunəsidir:

Misal 4.



Nəhayyət, üçüncü hissədə (mis.5.) "Vətəni sevməyən insan olmaz" sözlərində yenə də məhz C.Cahagirova xas olan apafeoz səpkili melodika bərqərar olur:

Misal 5.



Sonda qeyd etmək istərdik ki, Azərbaycan xalq musiqisinin vurğunu olan Cahangir Cahangirov bütün yaradıclığı boyu həmin musiqiyə xüsusi bir qayğıkeşlik və müdrikliklə yanaşmışdır. İstər könül açan mahnı olsun, istər aşıq havası, istər qədim muğam və ya təsnif olsun, istərsə də qaynar rəqs, fərqi yoxdur, folklordan quru iqtibas əhvali-ruhiyyəsi bəstəkara yabançı olmuşdur. O, xalq musiqisinin qaynaqlarından yaradıcılıqla faydalanmışdır. C.Cahangirovun musiqisi özünəməxsus parlaq melodikliyi, milli folklorla bağlılığı, nikbinliyi, səmimiliyi, fəlsəfi ideyaları və bahadır mübarizliyi ilə səciyyələnir. Bəstəkarın əsərlərinin bu cəhətləri ona geniş dinləyici kütləsinin rəğbətini və dərin məhəbbətini qazandırmışdır.

Məqalədə **ilk dəfə** olaraq musiqişünaslara və geniş kütləyə az tanış olan kiçik formalı xor və vokal əsərləri təfərrüatı ilə araşdırılmışdır.

ƏDƏBİYYAT

1. J.Qədimova. Musiqinin tədrisi metodikası / Dərslik. Bakı, 2007

2. N.Mirzəyeva. Azərbaycanda kantata-oratoriya janrının inkişafı / Monoqrafiya. Bakı, 2018

3. S.Qasımova. Cahangir Cahangirov / S.Qasımova, N.Bağırov. Azərbaycan sovet musiqi ədəbiyyatı kitabında. Bakı, 1986

4. T.Məmmədova. C.Cahangirov: Biblioqrafiya. Bakı, 2011

5. G.Ə.Axundova. Məktəb mahnı repertuarı / Dərs vəsaiti. Bakı, 2017

6. M.T.Əliyeva, G.Ə.Axundova. Məktəbli xoru üçün Azərbaycan bəstəkarlarının mahnıları / Dərs vəsaiti. Bakı, 2016

Məqalənin redaksiyaya daxil olma tarixi: 01.06.2020
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.06.2020
Məqalənin çapa qəbul olunma tarixi: 18.06.2020
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru Firəngiz Rzayeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.